# Moskvada Naməlum Əsgərin məzarını ziyarət

Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 21-də Moskva şəhərindəki Aleksandr bağında Naməlum Əsgərin məzarını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva Rusiya paytaxtında Kremlin divarı yanındakı Aleksandr bağına gəldi.

Moskva şəhərinin hərbi komendantı Yevgeni Seleznyov Azərbaycanın Birinci vitse-prezidentinə raport verdi.

Birinci vitse-prezident Mehriban Əliyeva Naməlum Əsgərin məzarını ziyarət edərək əbədi məşəl önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Sonra fəxri qarovul dəstəsinin keçidi oldu.





Azərbaycan.- 2019.- 22 noyabr.- S. 1.